# Təqdimat

Yaxın günlərin birində tədbirdə görüşdük və tanış olduq. Qəbələ bölgəsindən gəlmişdi adı Elza Dəniz idi. Şeirlərini dinlədim, özünü dinlədim yaxşı ovqat bəxş etdi. Həzin kövrək duyğulu lirik şeirləri var. İnsanlıq, inam, sevgi şeirlərinin əsas qayəsini təşkil edir. "Ölüm də son deyil" şerində oxuyuruq:

*Göründüyü kimi olmadığını anlayanda*
*Dünya keçilmiş yol...*
*Ölümün son ünvan olduğunu görəcəksən*
*Amma əslində ölümdə son deyildir.*



Elza Dənizin bu misralarda göründüyü kimi hissiyatı, həyatı duymaq fəlsəfəsi güclüdür, maraqlıdır. İnsanın son anda ölüm anına möcüzə kimi baxması müəllifə görə son deyil. Şeir maraqlı təhlil və təsirlə bitir. Gənc şairəin başqa bir şerinığə nəzər salaq:

*Dünyanın zənbilində sabahlar var,*
*Sabahın gözündə ümüdlər.*
*Arzular doğulanda ağlamazlar ki,*
*Öldüyündə ağlayarlar...*

"Qürur abidələri" şerindən götürdüyümüz bu nümunədə ölüm-itim dünyası, insanın haqqa dirənən son ümüdlərinin yenə də son olmamasına ümüd artır. Burada Elza Dənizin daxilində, ruhunda insanın əbədi olmasının varlığına işarə edilir. Haradasa müəllifin bu baxışları sufi-dərviş səviyyəsinə ünvanlanır.

Şeirlərində vətənə, torpaqlarımızın butövlüyünə bağlılıq çağrışları qürurvericidir. Çoxəsirlik poeziyamızda ilk addımlarını atır. Şeirlərindəki ideya maraqlı təsir bağışlasada mürəkkəb məqamlar da az deyil.

Hər bir şairin, yazıçının, rəssamın, daxili zənginliyi onun mütaliəsindən, dünyaya baxışından keçir. Ədəbiyyata gələn gənclərimiz bunu yaxşı bilməli və əməl etməlidirlər. Klassikanı oxumaq, xalq dastanlarımızı oxumaq lazım olanları əxz eləmək hər bir gənc yazarın birbaşa ədəbi borcudur. Elza Dəniz bu gün poeziyada özünün kövrək addımlarını atır. Dərin təfəkkür, ideya bütövlüyü bütün bunlar milli təfəkkürümüzə bağlananda gözəl nəticələri olur.

Elza Dəniz özünün bir şairə kimi təsdiqini tapmaq üçün hələ axtarışdadır. Ağlından, təfəkküründən keçən ədəbi nümunələrini mətbuatda görmək əlbət ki, onun arzusudur.

Elza Dənizin üç şerini "Ədalət" qəzetinin oxucularına təqdim edirəm. Yolu uğurlu olsun, qələmi iti olsun...

**Maşallah Məftun**

<u>*ELZA DƏNİZ*</u>

## ÖLÜM DƏ SON DEYİL

*Düşüncələrimizin kökləndiyi*
*nöqtədən görünər dünya sənə.*
*Kiminə ağı qara göstərər,*
*kiminə qaranı ağ.*
*Bəzən danışacağın yerdə susmağı,*
*Bəzən susacağın yerdə danışmağı seçərsən.*
*Kiminə gülünc görünəndə,*
*kiminə hüzn verərsən.*
*Dünya sənə gözəl görünə bilər*
*Bataqlıqları tanımadan öncə,*
*Köklənmə dünyanın gözəlliklərinə...*
*Sadəcə zamanın bəzək tərəfidir səhərlər...*
*Gördüklərinin arasında*
*görmədiklərin xəyalında yaşayacaq.*
*Və bir gün yoxluqlarla üz-üzə gələcəksən.*
*Sadəcə yuxu kimi gələcək ölümlər...*
*Oyandığında sevdiyin yanlışların*
*utancından birdə ölmək istəyəcəksən.*
*Göründüyü kimi olmadığını anlayanda*
*dünya keçilmiş yol*
*Ölümün son ünvan olduğun görəcəksən.*
*Amma əslində ölüm də son deyildir.*
*Onun da keçid tərəfi*
*ruhların dayanacağında bitir...*

## SƏNSİZLİK

*Yəqin sənsizlikdir məni incidən,*
*Dünya marağını itirib nədən.*
*Əllərim əlimi ovuda bilmir*
*Bütün dünya zülmət,işıq balaca...*

*Sakit-sakit nəğmə oxuyan bulaq,*
*Zümzümə deyirdi, ağı deyirdi.*
*Baxın hamı yatıb, bircə mən oyaq,*
*Birdə məni çəkən o yazıq otaq...*

*Ağaca oxşayır sənsiz həyatım,*
*Gündə min ümüdün payız aparır.*
*Onun ümüdü var*
*bahar gələndə,*
*Mənim həsrətimi bahar qanadır...*

*Bəlkələr düzülüb suallarıma,*
*Cavablar uydura bilmir qələm də.*
*Nə qədər bəzəsəm cümlələrimi,*
*Onlar da kilidə dönür qəhərdə.*

*Bir gün günəş tərsə çıxacaq əlbət,*
*Dünya dönüb geri fırlanacaqdır.*
*Bəlkəyə söykənən o vəfasızlar,*
*Dünyada bizləri axtaracaqdır.*

*Sim tək köklənmişəm sənsizliklərə,*
*Nəğməm şirin-şirin səni ağlayır.*
*Çılğın hisslərimin astanasında,*
*Zalım dünyam yenə səni çağlayır.*

*Qəlbimdə yurd salan sənsizlikləri,*
*Geri döndərməyə gümanım azdı.*
*Ömrümü heyrətə salası qəmi,*
*Ömrə vəfa qılan zamanım azdı...*

ədalət.- 2022.- 12 mart.- S.8.